# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Avrasiyanın yeni logistika düyünü



6

# Azərbaycan - Qırğızıstan əlaqələri iqtisadi tərəfdaşlıqdan siyasi müttəfiqliyə yüksəlir



2


SƏS

№ 059 (7469)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 avqust 2026-cı il.
Qiyməti 1 manat


## Avqustun 15-dən metroda yeni hərəkət sxemi tətbiq olunacaq



4

# II Qaregin müttəhimlər kürsüsünə sürüklənir



3

## Xocavəndə qayıdan həyat!



5

## İnsanlardan heyvanlara xəstəlik keçə bilərmi?



8

## Tarixin danışan terrorları



3

## Bacılı bacılar və bacısızlar



4

# Azərbaycan - Qırğızıstan əlaqələri iqtisadi tərəfdaşlıqdan siyasi müttəfiqliyə yüksəlir







***Son vaxtlar Azərbaycan Mərkəzi Asiya ölkələri ilə, xüsusilə də Qırğızıstanla geniş iqtisadi, siyasi, ticarət və digər sahələr üzrə geniş əməkdaşlıq münasibətləri qurub və bu əlaqələr getdikcə daha da dərinləşdir. Təbii ki, bu əlaqələr hər iki xalqın maraqlarına uyğun olaraq inkişaf etdirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarov müstəsna xidmətləri mövcuddur.***

Bu iki liderin müdrik siyasətləri nəticəsində Azərbaycanla Qırğızıstan təkcə regional layihələrin icrasında deyil, həm də beynəlxalq müstəvidə bir-birinin mövqelərini dəstəkləyirlər. İqtisadiyyat, ticarət, kənd təsərüfatı əlaqələri hər il artır. 2026-cı ilin iyulun 1-nə olan məlumata görə, Azərbaycanda kənd təsərrüfatı, sənaye, tikinti, ticarət, nəqliyyat, xidmət sektorlarında Qırğızıstan investisiyalı 97 kommersiya qurumu qeydiyyatdadır, onlardan 39-nun fəaliyyəti aktivdir. İndiyədək Azərbaycandan Qırğızıstana birbaşa investisiya axınlarının həcmi 68,8 milyon dollar təşkil edir. Qırğızıstandan isə Azərbaycana birbaşa investisiya 25,2 milyon dollardır və bu, əsasən qeyri-neft-qaz sektorunun payına düşür. 1997-ci il avqustun 28-də iki ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalanıb və qüvvədədir. Bu ilin yanvar-iyun aylarında Azərbaycan və Qırğızıstan arasında ticarət dövriyyəsi təxminən 29 milyon ABŞ dolları olub. Yarım ildə Azərbaycandan Qırğızıstana 25,5 milyon dollarlıq məhsul ixrac olunub, Qırğızıstandan ölkəmizə isə 3,4 milyon dollarlıq məhsul idxal edilib. Keçən il isə iki ölkə arasında ticarət dövriyyəsi 77,1 milyon dollardan çox olub. Bütün bu kimi yüksək səviyyədə qurulan əlaqələr xalqlar arasında qarşılıqlı etimadı daha da möhkəmləndirir. Azərbaycan 30 il Ermənistanın işğalı altında olmuş torpaqlarını azad etdikdən sonra ərazilərdə təmir, tikinti, quruculuq işlərinin aparılmasında xarici ölkələr arasında ilk olaraq dəstək götərən, yardımlar edən ölkələrdən biri də Qırğızıstan oldu. Rəsmi Bişkek Azərbaycanın azad edilmiş ərazilərində infrastruktur layihələrinin həyata keçirilməsində, xüsusilə də, Ağdam rayonunun Xıdırlı kəndində Ayköl Manas adına tam orta məktəbin tikintisində fəal iştirak etmişdir.

Söz yox ki, Azərbaycanla Qırğızıstan münasibətləri bundan sonra daha da inkişaf edəcək. Çünki bunun üçün siyasi iradə, prezidentlərin müdrik qərarları və xalqların istəkləri mövcuddur. İyulun 31-də Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib. Qırğızıstan Prezidenti Sadır Japarov 1-ci dərəcəli "Manas" ordenini Prezident İlham Əliyevə təqdim edib. Prezident İlham Əliyev isə "Heydər Əliyev" ordenini Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarova təqdim edib. Bu təltifetmə mərsimi dostluğun və qardaşlığın davamlı olacağının təsdiqidir. Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri zamanı 14 sənəd imzalandı. Şuşa–Çolpon-Ata, Qəbələ–Karakol və Gəncə–Oş şəhərləri arasında qardaşlaşma, "AzerGold" ilə "Kyrgyzaltyn" arasında əməkdaşlıq memorandumları imzalnıb. Ən diqqəti cəlb edən müqavilələrdən biri isə "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" imzalanmasıdır. Bu müqavilə hər iki dövlətin və xalqlarının maraqlarına cavab verir və haqlı olaraq müqavilənin imzalanmasını tarxi hadisə hesab olunur. Qırğızıstandan olan politoloq Mars Sariyev müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanmasını Qırğızıstan-Azərbaycan əməkdaşlığının keyfiyyətcə yeni səviyyəyə yüksəldiyinin göstəricisi adlandırıb Bildirib ki, bu, təkcə rəmzi siyasi akt deyil, həm də strateji tərəfdaşlıq üçün uzunmüddətli hüquqi bazanın yaradılması deməkdir: "Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri zamanı Çolpon-Atada Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması ilə bağlı fikirlərini bölüşüb.

Politoloq qeyd edib: "Müqavilə regional təhlükəsizlik, xarici siyasət, nəqliyyat, enerji və iqtisadi məsələlər üzrə daha sıx koordinasiyanı təmin edir. Bu, Qırğızıstana yeni Avrasiya nəqliyyat marşrutlarının inkişafında iştirak etmək üçün əlavə imkanlar verir. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu və Orta Dəhlizin inkişafı ilə birlikdə, Azərbaycanla müttəfiqlik də Qırğızıstan mallarının Qafqaz, Türkiyə və Avropa bazarlarına çıxışını əhəmiyyətli dərəcədə genişləndirir. Sənəd, həmçinin Qırğızıstanın inkişaf etməkdə olan çoxqütblü dünyada beynəlxalq mövqeyini gücləndirir. Bişkek Avrasiyanın əsas logistika və enerji mərkəzlərindən birinə çevrilən dövlətlə əməkdaşlığı gücləndirir".

Ekspertin fikrincə, imzalanan sənəd Qırğızıstanın Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə xüsusi əhəmiyyət kəsb edir.

Mars Sariyev onu da qeyd edib ki, bu gün Avrasiya Yaxın Şərqdə qeyri-sabitlik, Əfqanıstandakı risklər, beynəlxalq nəqliyyat dəhlizlərinə təhdidlər, terrorizm, kibertəhdidlər və hibrid müharibənin digər təzahürləri kimi yeni çətinliklərlə üzləşir: "Belə olan şəraitdə Qırğızıstan ilə Azərbaycan arasında müttəfiqlik münasibətləri daha geniş regional sabitlik sisteminin elementinə çevrilir. Hazırda mahiyyət etibarilə yeni Avrasiya məkanının formalaşmasının şahidi oluruq və bu kontekstdə Mərkəzi Asiya, Cənubi Qafqaz və potensial olaraq Əfqanıstan vahid geoiqtisadi və geosiyasi konstruksiyanın bir-biri ilə əlaqəli elementlərinə çevrilir.Coğrafi mövqeyi və fəal xarici siyasəti sayəsində Qırğızıstan bu yeni arxitekturanın əsas qovşaqlarından birinə çevrilmək imkanına malikdir və ŞƏT-ə sədrliyi Bişkekə əməkdaşlıq qaydalarının hazırlanmasında, həmçinin müasir təhlükəsizlik çağırışlarına kollektiv cavab verilməsində iştirak etmək üçün əlavə imkan yaradır".

Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər və mətbuat üçün səsləndirilən bəyanatlar iki dövlət arasında münasibətlərin yüksək xarakter daşıdığını bir daha təsdiqlədi. Səfər zamanı Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclası çərçivəsində dövlət başçıları tərəfindən Dövlətlərarası Şuranın 3-cü iclasının Qərarı imzalanıb. Qərarda iki ölkə arasında münasibətlərin artıq müttəfiqlik səviyyəsinə yüksəlməsinin xüsusi vurğulanması Azərbaycan-Qırğızıstan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə daxil olduğunu nümayiş etdirir. Bu, tərəflərin yalnız siyasi məsələlərdə deyil, iqtisadiyyat, enerji, nəqliyyat, investisiya, humanitar əməkdaşlıq və təhlükəsizlik kimi istiqamətlərdə də uzunmüddətli və sistemli tərəfdaşlıq qurmaq niyyətini əks etdirir.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 31-də Qırğızıstan Respublikasına dövlət səfəri iki ölkə arasında münasibətlərin inkişafında mühüm siyasi hadisədir. Eyni zamanda səfər çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər, qəbul edilən qərarlar və dövlət başçılarının mətbuata verdikləri bəyanatlar Azərbaycan ilə Qırğızıstan arasında əməkdaşlığın bundan sonra daha sıx, səmərli və hər iki xaıqlın mənafeynə xidmət edəcəyini göstərir.

***İ.ƏLİYEV***

# II Qaregin müttəhimlər kürsüsünə sürüklənir

*Ermənistan Baş Prokurorluğu Erməni Apostol Kilsəsinin (EAK) rəhbəri Katolikos II Qaregin qarşı ittiham aktını təsdiqləyib. Məhkəmə iclası 7 avqusta təyin edilib. Ölkənin müasir tarixində ilk dəfə olaraq kilsə rəhbəri özünü cinayət ittihamı ilə müttəhimlər kürsüsündə tapıb. Vəkillər ittihamların hüquqi əsaslılığını müzakirə edərkən, politoloqlar Paşinyanla Erməni Apostol Kilsəsinin mənəvi mərkəzi olan Eçmiədzin arasındakı qarşıdurmanın geri dönüş nöqtəsini keçdiyini iddia edirlər.*



Datalex məhkəmə informasiya sisteminə görə, iş üzrə təqsirləndirilən şəxslər arasında Erməni Apostol Kilsəsinin Ali Ruhani Şurasının sədri, Bütün Ermənilərin Katolikosu II Qaregin və altı şura üzvü var: Erməni Apostol Kilsəsinin Xarici Əlaqələr Departamentinin rəhbəri arxiyepiskop Natan Ovannisyan, Avstraliya və Yeni Zelandiya Yeparxiyasının rəhbəri arxiyepiskop Haikazun-Vrej Najaryan, Ruhanilər və gənclərin təlim proqramının rəhbəri yepiskop Vahan Ovannisyan, Sünik Yeparxiyasının rəhbəri yepiskop Edqar Hakobyan, Eçmiədzinin İnzibati və İqtisadi Departamentinin direktoru yepiskop Nelson Babayan və Qouqark Yeparxiyasının rəhbəri yepiskop Artur Hakobyan. Onların hamısı Ermənistan Cinayət Məcəlləsinin 507-ci maddəsinin 2-ci hissəsi (vəzifə səlahiyyətlərindən istifadə edərək yekun məhkəmə qərarının icrasına mane olma) ilə ittiham olunurlar. Hər şey yanvar ayının ortalarında yepiskop Gevorq Saroyan katolikosa və Erməni Apostol Kilsəsinin rəhbərliyinə qarşı mülki iddia qaldırdıqdan sonra başlayıb. O, II Karekinin onu Masiatsotn yeparxiyasının rəhbəri vəzifəsindən azad etməsi barədə 10 yanvar tarixli fərmanının etibarsız elan edilməsini tələb edib. Məhkəmə Saroyanın tərəfini tutub və yepiskopun bərpa olunmasını tələb edib. Eçmiədzin bunu itaət andının pozulması və dövlətin kilsənin daxili işlərinə müdaxiləsi kimi qiymətləndirib. Yanvarın sonlarında Karekin Saroyanı vəzifəsindən uzaqlaşdırıb.

Katolikosla keçmiş yepiskop arasında qarşıdurma Ermənistan hakimiyyəti ilə kilsə rəhbərliyi arasında gərginliyin artması fonunda baş verib. Saroyan Baş nazir Nikol Paşinyanı dəstəkləyən bir qrup iyerarxlara qoşulub. Hökumət başçısı ilə Ermənistan Apostol Kilsəsinin ali rəhbərliyi arasındakı münasibətlər 2020-ci ilin payızında Qarabağda Ermənistanla Azərbaycan arasında baş verən silahlı münaqişə zamanı pisləşib. Ruhanilər Paşinyanı bölgə üzərində nəzarətin itirilməsində günahkar hesab edən müxalifət qüvvələrini dəstəklədiklərini bildiriblər. 8 dekabr 2020-ci ildə katolikos II Qaregin rəsmi müraciətində baş nazirə "mümkün qarışıqlıqların, toqquşmaların və faciəvi nəticələrin qarşısını almaq" üçün istefa verməyi tövsiyə edib. 2023-cü ildə II Qaregin çağırışını təkrarladı və bunun müddətsiz olduğunu vurğulayıb. 2024-cü ilin yanvarında Paşinyan ölkənin "yeni geosiyasi şəraitdə Ermənistanı daha rəqabətli və davamlı edəcək" yeni Konstitusiyaya ehtiyacı olduğunu bildirib. Demək olar ki, dərhal Eçmiədzində Ali Ruhani Şuranın genişləndirilmiş iclası keçirilib. Nəticədə sənəddə Əsas Qanunun yenilənməsi təklifi tənqid edilib.

2025-ci ilin yayına qədər vəziyyət gərginləşib. Paşinyan Ermənistan Apostol Kilsəsinin rəhbərliyini "dövlət əleyhinə qrup" və xarici kəşfiyyat xidmətlərinin "təsir agentləri" adlandırıb. Baş nazir II Qareginin rahiblik andını pozmaqda ittiham edərək onun vəzifəsindən azad edilməsini tələb edib. Erməni Apostol Kilsəsinin yüksək rütbəli iyerarxlarına qarşı həbslər, həbslər və məhkəmə hökmləri dalğası başlayıb. İyunun 26-da arxiyepiskop Baqrat Qalstanyan həbs edilib. Ermənistan İstintaq Komitəsi bildirib ki, yepiskopun rəhbərlik etdiyi müxalifətdəki "Müqəddəs Mübarizə" hərəkatının üzvləri və tərəfdarları terror aktları və hakimiyyəti zorakılıqla ələ keçirməyi planlaşdırırdılar. Arxiyepiskop Mikael Ajapaxyan iki gün sonra saxlanılıb. Oktyabrın 3-də İrəvan Ümumi Yurisdiksiya Cinayət Məhkəməsi Ajapaxyanı konstitusiya quruluşunun devrilməsinə çağırış etdiyinə görə iki il müddətinə azadlıqdan məhrum edib. Lakin iyunun 25-də Cinayət Apelyasiya Məhkəməsi hökmü ləğv edib və ruhani ev dustaqlığından azad edib. Qalan yeganə qətimkan tədbiri ərazini tərk etməmək barədə yazılı iltizamdır.

Katolikosun Ermənistanı tərk etməsi qadağandır və istintaq çərçivəsində onun şəxsi bank hesabları dondurulub. Müstəqil Ermənistan tarixində ilk dəfə olaraq, o, 2 avqustda keçirilən yeni seçilmiş 9-cu parlamentin açılışına dəvət olunmayıb. Müxalifət blokları olan "Güclü Ermənistan" və "Ermənistan"dan olan deputatlar "Ermənistan Patriarxı haradadır?" şüarları ilə etiraz aksiyası keçiriblər. Onlar hökuməti qaydaları pozmaqda günahlandırıblar və nümayişkaranə şəkildə parlament andını ucadan oxumaqdan imtina ediblər. Dayandırılan iclasdan dərhal sonra bütün müxalifət fraksiyası parlament binasını tərk edərək Eçmiədzinə getdi və orada katolikosun xeyir-duasını alıblar.

Katolikosun vəkili katolikos Ara Zöhrabyan və Eçmiədzinin nümayəndələri cinayət işini qanunsuz və bölünmə adlandırırlar. Hüquq mütəxəssisləri mülki məhkəmələrin Erməni Apostol Kilsəsinin kanonik məsələlərinə müdaxiləsinin kilsə muxtariyyətinin konstitusiya prinsipini pozduğundan qorxurlar. Lakin ittiham mülki qanunun aliliyinə əsaslanır. Politoloqlar hesab edirlər ki, ruhani liderlərin toxunulmazlığı ilə bağlı əvvəlki tabu pozulub. Bəziləri iddia edir ki, bu, mülki hökumətin şaquli güc strukturunu gücləndirmək məqsədilə Erməni Apostol Kilsəsinin müqəddəs toxunulmazlığının strateji şəkildə aşınmasıdır.

***V.VƏLİLİ***

# Tarixin danışan terrorları

**Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Azərbaycanda zaman-zaman ermənilər tərəfindən terror aktları törədilmiş və xalq olaraq bu terror aktlarının acı nəticələrini yaşamışıq.**





Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir və hadisələri ardıcıllıqla izləsək, görərik ki, ötən əsrin əvvəllərində - 1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Hadisələrin davamı olaraq 1918-ci ilin mart ayında soyqırımı törədiblər. 30 martdan 4 aprel tarixinə qədər ermənilərin törətdikləri cinayətlər nəticəsində minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilib. Ermənilər evlərə od vurub, insanları diri-diri yandırıblar. İnsanlığa sığmayan bir vəhşilik törədiblər. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri də dağıdaraq, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilib. Onu da qeyd edək ki. erməni vandallığının nəticəsində azyaşlılar və silahsız qadınlar xüsusi qəddarlıqla qətlə yetirilib. Ermənilər Şamaxı qəzasında 1653-ü qadın və 965-i uşaq olmaqla ümumilikdə 7000-dən çox insanı soyqırıma məruz qoyublar. Şamaxıda 58, Quba ərazisində 122, Qarabağın Dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan Quberniyasında 211 kənd yerlə yeksan olunub. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu köməyə gəlməsəydi, bu qırğının miqyası daha dəhşətli olardı. Daşnak quldur dəstələrinə qarşı vuruşlarda 5 min azərbaycanlı və min nəfərədək türk həlak olmuşdur.

### XANKƏNDİNİN MƏRKƏZİ MEYDANINDA MİTİNQLƏR

Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. Xocalı soyqırımı erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır.

Xocalıda terror əməliyyatının planı əvvəldən hazırlanmışdır. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə edilmişdi.

Bəli, ermənilər terroçudurlar. Tarixi faktlar bunu göstərir. 35 il bundan əvvəl 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlfəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur. Bu o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları oldular. Bu bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir.

1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Qəsəbə 3 nəfəri itirir. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. 1994-cü il 18 mart tarixində Xankəndi səmasında erməni terrorçuları tərəfindən İranın Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 36 nəfər həlak olmuşdur.

Tarixin 6 avqust 1992-ci il tarixində 34 il bundan əvvəl Qarabağ müharibəsi zamanı Azərbaycana məxsus döyüş helikopteri Qasapet yaxınlığında ermənilər tərəfindən raketlə vurulub. Vertolyotun baş komandiri Zakir Məcidov, təyyarəçi operator Ruslan Polovinko, sərrast nişançı-snayperçi Cavanşir Rəhimov həlak olurlar. Bu erməni faşist ideolgiyasıdır. Balaca Zəhraların qətli faşist düşmənin təfəkkürü, mövqeyidir ki, bu terrorlardan xalqımız əziyyət çəkib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yay tətilindən sonra məktəbə adaptasiya: Valideynlər nələrə diqqət etməlidir?



*Yay tətili uşaqların istirahəti, əylənməsi və psixoloji cəhətdən dincəlməsi üçün vacib dövrdür. Lakin uzunmüddətli fasilədən sonra yenidən məktəb rejiminə qayıtmaq bir çox şagird üçün asan olmur. Mütəxəssislərin fikrincə, məktəbin başlamasına bir neçə həftə qalmış uşağın gündəlik həyat tərzinin tədricən dərs rejiminə uyğunlaşdırılması adaptasiya prosesini xeyli asanlaşdırır. SİA mövzu ilə bağlı araşdırma edib.*

### Məktəbə qayıdışa psixoloji hazırlıq vacibdir

Psixoloqlar bildirirlər ki, uşağa məktəbin başlanacağı barədə əvvəlcədən məlumat vermək və onu bu prosesə mərhələli şəkildə hazırlamaq lazımdır. Valideynlər ötən tədris ilində öyrənilən mövzuları oyunlar, söhbətlər və müxtəlif əyləncəli fəaliyyətlər vasitəsilə xatırlada bilərlər. Bu yanaşma həm biliklərin möhkəmlənməsinə, həm də məktəb mühitinə yenidən alışmağa kömək edir.

### Dərs ləvazimatlarının seçimi motivasiyanı artırır

Məktəbə hazırlıq prosesinin maraqlı hissələrindən biri də dəftərxana ləvazimatlarının alınmasıdır. Uşağın zövqünə uyğun dəftər, qələm, çanta və digər vasitələrin birlikdə seçilməsi onda yeni tədris ilinə qarşı müsbət emosiyalar formalaşdıra bilər. Bu proses uşağın məktəbə marağını artıran motivasiya vasitələrindən biri hesab olunur.

### Dostlarla ünsiyyət məktəb həsrətini azaldır

Yay tətili ərzində sinif yoldaşları ilə ünsiyyətin azalması bəzi uşaqlarda sosial adaptasiyanı çətinləşdirə bilər. Buna görə də məktəbin açılışı ərəfəsində dostlarla görüşlərin təşkili, birgə fəaliyyətlərin həyata keçirilməsi uşağın məktəb mühitinə daha rahat qayıtmasına kömək edir.

### Yuxu rejimi tədricən dəyişdirilməlidir

Mütəxəssislər məktəb başlamazdan ən azı iki həftə əvvəl uşağın yuxu rejiminin tədricən dəyişdirilməsini tövsiyə edirlər. Gec yatmaq vərdişinin aradan qaldırılması və səhər erkən oyanmağa alışdırılması dərs günlərində yorğunluğun və diqqət dağınıqlığının qarşısını ala bilər.

### Nizam-intizam vərdişləri yenidən formalaşdırılmalıdır

Məktəb rejiminə uyğunlaşma üçün gündəlik planın bərpası böyük əhəmiyyət daşıyır. Uşağın idman, rəsm, musiqi və ya digər kurslara cəlb olunması onda məsuliyyət hissini və vaxtın düzgün idarə edilməsi bacarığını inkişaf etdirərək məktəb nizam-intizamına uyğunlaşmasını asanlaşdıra bilər.

Yeni dərs ilinə maraq yaradın

Valideynlər uşaqlara yeni sinifdə öyrənəcəkləri fənlər, əldə edəcəkləri biliklər və məktəbdə onları gözləyən maraqlı fəaliyyətlər barədə danışmalıdırlar. Bu, xüsusilə aşağı sinif şagirdlərində öyrənməyə marağın və motivasiyanın artmasına müsbət təsir göstərir. Əgər uşaq tətilin bitməsinə görə məyusdursa, valideynlər onu yeni dərs ilində qarşılaşacağı maraqlı hadisələr, əldə edəcəyi uğurlar və qarşıdakı tətil günləri haqqında söhbətlərlə həvəsləndirə bilərlər. Ailə üzvlərinin öz məktəb xatirələrini bölüşməsi də uşağın məktəbə münasibətinin müsbət formalaşmasına kömək edir.

### Psixoloq: uzun tətillər motivasiyanı azalda bilər

Türkiyəli psixoloq Engin Dəniz hesab edir ki, uzun yay tətili bəzi uşaqlarda məktəb motivasiyasının zəifləməsinə səbəb ola bilər. Onun fikrincə, tədris ilinin daha çox dövrə bölünməsi və daha qısa fasilələrin verilməsi şagirdlərin məktəb mühitindən uzaqlaşmasının qarşısını ala bilər. Psixoloqun sözlərinə görə, yay tətilində uşaqların məktəbdən və dostlarından uzun müddət ayrı qalması onların sosial və emosional uyğunlaşmasına mənfi təsir göstərə bilər. Günün böyük hissəsini televiziya, kompüter və digər elektron cihazlar qarşısında keçirən uşaqlarda isə məktəbə qayıdış zamanı adaptasiya problemləri daha çox müşahidə olunur.

İlk həftələr uğurlu tədris ilinin təməlidir

Engin Dəniz vurğulayır ki, məktəbin ilk həftələri uşağın bütün tədris ili ərzində göstərəcəyi nəticələrə ciddi təsir edir. Məktəbə mənfi münasibətlə başlayan, sinfini və dostlarını sevməyən, hər səhər məktəbə getmək istəməyən şagirddən yüksək akademik nəticə gözləmək çətindir.

Psixoloqun fikrincə, valideynlər məktəbin açılmasına bir neçə həftə qalmış uşağın yuxu rejimini, qidalanmasını, gündəlik fəaliyyətini və asudə vaxtını məktəb rejiminə uyğunlaşdırmalıdırlar. Eyni zamanda, uşağın məktəb alış-verişində iştirak etməsi, ötən tədris ilində yaranmış bilik boşluqlarının aradan qaldırılması, yeni fənlər barədə məlumatlandırılması və qarşıdakı dərs ili üçün real hədəflərin müəyyənləşdirilməsi onun motivasiyasını və məktəbə uyğunlaşmasını əhəmiyyətli dərəcədə artırır.

***Ayşən Vəli***

# Avqustun 15-dən metroda yeni hərəkət sxemi tətbiq olunacaq




Avqustun 15-dən etibarən Bakı metrosunda xətlərin ayrılması layihəsi çərçivəsində yeni hərəkət sxemi tətbiq ediləcək. SİA xəbər verir ki, bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov "28 May" stansiyasında xətlərin ayrılması ilə bağlı jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, İçərişəhər–Həzi Aslanov istiqamətində qatarların hərəkəti əvvəlki qaydada davam edəcək və 28 May stansiyası normal iş rejimində fəaliyyət göstərəcək. Bu xətt üzrə hərəkət edən qatarlar 28 May stansiyasında dayanacaqlar. Bəxtiyar Məmmədov bildirib ki, əsas dəyişiklik 28 May–Nizami mənzilində tətbiq olunacaq. Belə ki, avqustun 15-dən etibarən 28 Maydan Nizami istiqamətinə qatarların hərəkəti dayandırılacaq və xətlərin ayrılması layihəsi başa çatanadək hərəkət tamamilə yeni sxem üzrə təşkil ediləcək.

O qeyd edib ki, layihə müddətində qatarlar Dərnəgül–Nizami istiqamətində hərəkət edəcək. İki xətt arasında sərnişin daşınmasının təmin olunması məqsədilə yerüstü ictimai nəqliyyatın işi də uyğun şəkildə tənzimlənəcək. Mətbuat katibi vurğulayıb ki, layihənin icrası təxminən 10-11 ay davam edəcək.

Onun sözlərinə görə, noyabr ayından etibarən İçərişəhər–Həzi Aslanov istiqamətində qatarların hərəkət intervalı 2 dəqiqə 30 saniyə, Dərnəgül–Nizami istiqamətində isə 3 dəqiqə 30 saniyə olacaq. Bu məqsədlə İçərişəhər stansiyasında gücləndirmə işləri aparılıb, əlavə maşinistlər cəlb olunub və qatarların stansiyanı daha operativ tərk etməsi üçün zəruri tədbirlər görülüb. Bəxtiyar Məmmədov əlavə edib ki, metro xətləri arasında fəaliyyət göstərəcək ekspres avtobuslar ödənişli olacaq.

***Günel Fərzəliyeva***



# Bacılı bacılar və bacısızlar

**Mətanət Məmmədova**

***Vaxt vardı ki, bacıların bacısı vardı, həm də bir, iki, bəzən daha çox. Zaman ötdü, ailələrdə uşaqların sayı azalmağa başladı. Belə olanda qardaşlar qardaşsız qaldığı kimi, bacılar da bacısız qaldı. İndi çox az sayda ailə olar ki, orada bacının bacısı olsun. Beləliklə, cəmiyyətimizdə bacısız qızların sayı sürətlə artmaqdadır.***

5 avqust Dünya Bacılar Günüdür. Maraqlıdır, bu günə töhfəmiz nədən ibarətdir; dünyanı bacısızlaşdırdığımızmı? Qızlarımızı bacısız qoyduğumuzmu?

Bacılı bacı olmaqla bacısız olmağın fərqini yalnız bacısı olan qızlar bilir. Saatlarla bacısı ilə söhbət edən, heç kimə demədiyi sirrini-sözünü bacısı ilə bölüşən, məsləhətlər alan, hər yerə birlikdə gedən qızlar. Bacısı olanlar bilər bacısı olmayanlar nə qədər tənhadır, nə qədər təkdir. Bəlkə də bacısı olmayanlar artıq bu yoxluğa uyğunlaşır, bu cür yaşamağın bacılı həyatla fərqini anlaya bilmirlər. Lakin bacısı olanlar da yaxşı bilir ki, bacı həyatın mənasıdır, rəngidir, marağıdır.

Əslində bacısı olmayan qızlara qarşı analar günah edir. Onları bacısız qoymaqla tənhalığı ərmağan edir. Bəlkə də fərqində deyilik, lakin onları bacısız qoymaqla bir ömür nədən məhrum etdiyimizi düşünən varmı? Qızlarımıza qarşı həm də özümüz bacılı olaraq bunu ediriksə, deməli, bu dəfə özümüzü bir dəfə deyil, iki dəfə qınamalıyıq. Bacının həyatımızda rolunu, gözəlliyini görə-görə qızlarımızı bu gözəllikdən məhrum ediriksə, daha nə deyim?

Ümumiyyətlə, uşaq doğumu azalan statistika ilə irəliləyir. İstəq qız, istər oğlan olsun, artıq ailələrdə uşaqların dünyaya gəlməsi barədə düşünənlərin sayı azalmaqdadır. Cəmiyyətimiz hazırda qardaşsız oğlanlar, bacısız qızlar cəmiyyətidir. Minlərlə ailədə yalnız iki uşaq var: bir oğlan, bir qız. Belə olan təqdirdə deyə bilirik ki, onların övladları əmisiz və xalasız uşaqlar olacaq.

Bəs vaxtilə bir uşağın bir neçə əmisi, bir neçə xalası olurdu axı. Belə uşaqlar əlbəttə, xoşbəxt idilər. Böyük bir nəslin övladları, arxalı-dayaqlı idilər. Dövrümüzdə isə əmilərin, xalaların yoxa çıxdığı bir cəmiyyət yaranıb. Bu isə qohumların sayının azalması, qohumluq əlaqələrinin məhdudlaşması deməkdiur, fərqində olan varmı?

Deyə bilərsiniz ki, müasir dövrdə heç qohum evinə gedən də yoxdur. Təəssüf ki, bunu da özümüz edirik. Vaxtımızı internet dünyasına qurban verib doğmalarımızdan uzaqlaşırıq. Uşaqların sayını azaltmaqla, gələcək nəsil üçün qohum qıtlığı yaradırıq. Sonra da deyirik ki, müasir dövrdür də, indi hamıda belədir. Gəlin, bircə dəfə düşünək ki, ətrafda nə dəyişiklik varsa, hər biri insan övladının düşüncəsi, əməlidir. Elə bacısız övladların bu gözəllikdən məhrumluğu kimi. Lakin heç də doğru düşüncədə deyilik. Övladlarımız zaman gələcək, bizi qınayacaqlar, bunu unutmayaq.

Nə qədər ki gec deyil, qızlarımız üçün bacı, oğlanlarımız üçün qardaş haqqında hərdən düşünək.






# Xocavəndə qayıdan həyat!

***2003**-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrində sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Ölkəmizin siyasi, iqtisadi, sosial mənzərəsi göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləyib. Ötən illər ərzində Azərbaycan xalqının təhlükəsizlik və sabitlik şəraitində yaşaması, uğurlu inkişafı hər bir Azərbaycan vətandaşında məmnunluq yaradır. "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik" – deyən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi.*

## *Prezident İlham Əliyev: "Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik"*

"2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq", - deyə dövlət başçımız çıxışlarının birində qeyd edib. 2023-cü ilin sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir: "Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz", - deyə dövlətimizin başçısı bildirib.

### ""BİZ BÖYÜK QAYIDIŞ PROQRAMININ BİRİNCİ MƏRHƏLƏSİNİ 2026-CI İLİN SONUNDA BAŞA ÇATDIRACAĞIQ"

Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun Qarabağda başlatdığı iki il əvvəl 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı.

Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Önəmli vəzifələrdən biri olan Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi olduğunu bildirən Cənab Prezident görülən işlərin sürətlə aparılmasını tarixdə görünməmiş bir hadisə olduğunu bildirib: "Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq".

### SAĞLAM MALİYYƏ SİSTEMİNİN GÖSTƏRİCİLƏRİ



Zəfərdən altı ilə yaxın zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Bu gün işğaldan azad olunan ərazilərimiz abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

Növbəti köç karvanı Xocavənd şəhərinə olub. Şəhərin Qırmızı Bazar qəsəbəsi və Xocavənd kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda, döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə 20 ailə - 81 nəfər, Qırmızı Bazar qəsəbəsinə 2 ailə - 9 nəfər, Xocavənd kəndinə isə 5 ailə - 17 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxanalarda, sanatoriyalarda, düşərgələrdə, yarımçıq tikililərdə və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd şəhəri, Qırmızı Bazar qəsəbəsi və Xocavənd kəndinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr yurdlarına qovuşublar. Şəhər, qəsəbə və kənddə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir.

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. İşğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

### "ƏGƏR İNSANLAR ÜRƏKLƏ İŞLƏMİRLƏRSƏ, HEÇ BİR İŞİ GÖRMƏK MÜMKÜN DEYİL"

Həyata keçirilən işlərə diqqət yetirsək görərik ki, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində yerləşən tam orta məktəbin və uşaq bağçasının binasında aparılan təmir-tikinti işləri artıq başa çatdırılıb. Xocalı şəhərində, Ballıca, Həsənriz, Talış və Suqovuşan kəndlərində tibb məntəqələri istifadəyə verilib. Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2025-ci il tarixli Sərəncamı ilə Qarabağ Universitetinin tabeliyində "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs yaradılıb. Bundan başqa, ərazidə nəqliyyat infrastrukturunun qurulması ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi ilə Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurulması başa çatdırılıb. Xankəndidə 60 yaşayış və 20 qeyri-yaşayış binasında təmir və yenidənqurma işləri aparılıb. Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin artıq açılışı olub. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur.

Güclü iqtisadi inkişafa sahib olan Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Laçında, Füzulidə və digər ərazilərdə görülən işlər, Füzuli Beynəlxalq Hava Limanın cəmi səkkiz ay ərzində tikilib istifadəyə verilməsi, Zəngilan Beynəlxalq Hava Limanını açılışı və s. işlərin uğurla davam etdiyini göstərir. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanı istifadəyə verilir. Xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. 10-dan çox kəndin Baş planı təsdiqlənib və bir neçə kəndin təməli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Görülən işlər Baş planlar əsasında həyata keçirilir. "Qısa müddət ərzində bu qədər böyük işin görülməsi bu gün bir daha göstərir ki, bizim nə qədər istedadlı xalqımız var. Mənə çatan məlumata görə, o cümlədən buraya səfər edən xarici nümayəndələr deyirlər ki, söhbət təkcə pulda, pul məsələsində deyil. İstəyir nə qədər pulun olsun, əgər insan kapitalı yoxdursa, əgər insanlar ürəklə işləmirlərsə, heç bir işi görmək mümkün deyil. Bir xüsusi əlaməti də diqqətinizə çatdırım, yəqin ki, siz də bunu yaxşı bilirsiniz. Burada işləyənlərin hamısı çox böyük həvəslə işləyir, - yəni, təbii ki, burada şirkətlər, dövlət qurumları işləyir, - burada işləmək insanlara xüsusi zövq verir. Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik. Ona görə "Böyük Qayıdış" Proqramı artıq reallaşıb", - deyə Azərbaycan Prezidenti bildirib. Göründüyü kimi, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının nəticəsidir ki, işğaldan azad olunan ərazilərimizdə yeni həyat başlanılıb.

***Zümrüd BAYRAMOVA***

# Avrasiyanın yeni logistika düyünü

## TRIPP, Orta Dəhliz və Azərbaycanın yüksələn geosiyasi gücü

***2025–2026-cı illərdə Cənubi Qafqazda baş verən diplomatik proseslər regionun nəqliyyat və geosiyasi xəritəsini yenidən formalaşdırmağa başlayıb. ABŞ-ın vasitəçiliyi ilə gündəmə gələn TRIPP (Trump Route for International Peace and Prosperity) layihəsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Ermənistanın Sünik bölgəsindən keçən nəqliyyat əlaqəsinin beynəlxalq mexanizm əsasında açılmasını nəzərdə tutur. Bu layihə Azərbaycanın uzun illər irəli sürdüyü Zəngəzur bağlantısı ideyasının yeni siyasi-hüquqi modelidir. Əgər layihə tam həyata keçirilərsə, Azərbaycan yalnız enerji ixrac edən ölkə deyil, həm də Avrasiyanın əsas logistika mərkəzlərindən birinə çevrilə bilər.***



Lakin bu transformasiya avtomatik baş verməyəcək. Layihənin uğuru regional təhlükəsizlikdən, iqtisadi səmərəlilikdən və böyük güclər arasındakı rəqabətin idarə olunmasından asılı olacaq. 2022-ci ildən sonra dünya ticarət marşrutları sürətlə dəyişməyə başlayıb. Rusiya–Ukrayna müharibəsi Avropa şirkətlərini Rusiyadan keçən Şimal dəhlizindən uzaqlaşdırıb. Qırmızı dənizdə husilərin hücumları Süveyş marşrutunun təhlükəsizliyini sual altına qoyub. ABŞ və Avropa isə Çinlə iqtisadi əlaqələri tam dayandırmadan alternativ logistika xətləri qurmağa başlayıblar. Belə bir şəraitdə Orta Dəhliz ilk dəfə qlobal strateji layihə statusu qazanıb. Azərbaycan isə bu marşrutun coğrafi mərkəzində yerləşir.

### Niyə məhz Azərbaycan?

Ən qısa yol həmişə ən yaxşı yol deyil. Ən təhlükəsiz və ən sabit yol ən dəyərli yoldur. Azərbaycan son otuz ildə bir neçə mühüm üstünlük – Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı, müasir avtomobil magistralları, Xəzər dənizində ən böyük ticarət donanmalarından biri, rəqəmsal gömrük sistemləri, enerji və nəqliyyat infrastrukturu formalaşdırıb. Bu səbəbdən Avropa İttifaqı, Türkiyə, Mərkəzi Asiya ölkələri və ABŞ Azərbaycanın tranzit roluna əvvəlkindən daha çox əhəmiyyət verməyə başlayıblar.

TRIPP əslində bir yol deyil. O, üç müxtəlif funksiyanı birləşdirir. Birinci funksiyası Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməkdir. Bu, ölkənin ərazi daxilində nəqliyyat əlaqələrinin şaxələndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. İkinci funksiyası Türkiyəyə daha qısa logistika çıxışı yaratmaqdır. Hazırda əsas tranzit Gürcüstan üzərindən keçir. Yeni bağlantı alternativ marşrut formalaşdıracaq. Bu isə risklərin bölüşdürülməsi deməkdir. Üçüncü funksiyası Orta Dəhlizə ikinci nəfəs verməkdir. İndiyə qədər Orta Dəhlizin ən zəif tərəfi alternativlərinin az olması idi. Yeni bağlantı həmin problemi müəyyən qədər aradan qaldıra bilər.

### Azərbaycanın geosiyasi çəkisi necə dəyişəcək?

Geosiyasətdə əsas prinsip sadədir. Kim yolları idarə edirsə, o, ticarətin müəyyən hissəsini də idarə edir. Tarix bunun çoxlu nümunələrini göstərir. Misir Süveyş kanalına görə, Türkiyə Bosfora görə, Sinqapur Malakka boğazına görə, Panama Panama kanalına görə, Qazaxıstan isə Mərkəzi Asiya tranzitinə görə strateji əhəmiyyət qazanıb. Azərbaycan da bu sıraya daxil olmağa çalışır. Əgər TRIPP uğurla işləsə, Azərbaycan Avropa ilə Mərkəzi Asiya arasında əsas quru körpüsünə çevrilə bilər, enerji diplomatiyasını logistika diplomatiyası ilə tamamlayar, regional danışıqlarda daha böyük siyasi təsir imkanları əldə edər, beynəlxalq investorlar üçün daha cəlbedici olar.

Bəzən düşünülür ki, gəlir yalnız tranzit rüsumlarından ibarətdir. Əslində isə ən böyük qazanc əlavə xidmətlərdən gəlir, yəni, məsələn, logistika parkları, konteyner terminalları, sığorta xidmətləri, bank əməliyyatları, gömrük xidmətləri, anbar kompleksləri, istehsal zonaları, yük emalından gəlir. Məhz bu sahələr uzunmüddətli iqtisadi artım yaradır. Bu baxımdan Ələt Azad İqtisadi Zonası gələcəkdə layihənin əsas iqtisadi mərkəzlərindən birinə çevrilə bilər. Layihənin uğuruna mane ola biləcək əsas amillər Moskva, Tehran və İrəvanda baş verənlərdir. Moskva uzun illər Cənubi Qafqazın əsas təhlükəsizlik aktoru olub. TRIPP isə Qərbin bölgədə iqtisadi təsirini artırır. Bu, Rusiyanın maraqları ilə tam üst-üstə düşmür. Lakin Rusiya layihəni tam dayandırmaq imkanına da əvvəlki qədər malik deyil.

İran üçün Ermənistanla sərhəd geosiyasi baxımdan xüsusi əhəmiyyət daşıyır. Tehran hesab edir ki, yeni logistika xətti onun regional tranzit rolunu zəiflədə bilər. Buna görə İran gələcəkdə diplomatik təzyiqləri davam etdirə bilər.

Ən böyük qeyri-müəyyənlik isə Ermənistanın daxili siyasətindədir. Hökumət dəyişərsə, razılaşmaların icrası gecikə bilər. Yeni siyasi qüvvələr fərqli mövqe tuta bilərlər. Yolun açılması hələ yükün gəlməsi demək deyil. Əgər gömrük uzun çəkərsə, tariflər baha olarsa, Xəzərdə gecikmələr davam edərsə, şirkətlər başqa marşrutlara üstünlük verəcəklər.

### ABŞ niyə maraqlıdır?

ABŞ layihəyə yalnız Ermənistan və Azərbaycan arasında sülh təşəbbüsü kimi baxmır. Burada daha böyük strateji məqsəd mövcuddur. Vaşinqton istəyir ki, Avropa ilə Asiya arasında ticarət marşrutlarının sayı artsın. Beləliklə, Rusiya üzərindən asılılıq azalsın, İran marşrutlarının əhəmiyyəti aşağı düşsün, Çinin "Bir Kəmər, Bir Yol" layihəsində Qərbin də təsir imkanları genişlənsin. TRIPP bu strategiyanın tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Bu yerdə Azərbaycan nə etməlidir? Layihənin uğuru üçün Azərbaycan aşağıdakı istiqamətlərə üstünlük verməlidir. Ələt limanının ikinci mərhələsinin sürətləndirilməsi, Xəzərdə Ro-Ro və bərə donanmasının genişləndirilməsi, Bakı–Tbilisi–Qars xəttinin daşıma qabiliyyətinin artırılması, rəqəmsal gömrük prosedurlarının tam tətbiqi, Mərkəzi Asiya ölkələri ilə vahid tranzit tariflərinin hazırlanması, Avropa İttifaqı ilə logistika standartlarının uyğunlaşdırılması əsas faktorlardandır. Bu addımlar olmadan təkcə yolun açılması gözlənilən effekti verməyəcək.

### ABŞ, Ermənistan və "Tramp Yolu"

Ermənistan və ABŞ hakimiyyəti "Tramp Yolu" layihəsini həyata keçirməyə davam edir. İyulun ortalarında Vaşinqton marşrutun inkişafına maliyyə yatırımını ikiqat artırıb və hazırda irəliləyişlərə nəzarət etmək üçün İrəvana diplomat göndərib. Bu arada, Azərbaycan boru kəmərinin əhəmiyyətli bir hissəsinin tikintisini artıq başa çatdırdığını və Ermənistanın da eyni şeyi etməsini gözlədiyini açıqlayıb.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ABŞ-ın Sülhməramlı Əməliyyatlar üzrə Xüsusi Elçisinin baş müşaviri Arye Laytstoun ilə görüşüb. Tərəflər Cənubi Qafqazın inkişaf potensialını maksimum dərəcədə artırmaq üçün Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olmasının vacibliyini vurğulayıblar. Tərəflər həmçinin süni intellekt sahəsində əməkdaşlıq və Firebird AI meqalayihəsinin birinci mərhələsi çərçivəsində hazırda tikilməkdə olan məlumat mərkəzinin (AB Factory) istifadəyə verilməsini müzakirə ediblər.

Mirzoyan və Laytstoun ticarət və iqtisadiyyat sahəsində əməkdaşlıq imkanlarını və proqramlarını, eləcə də Ermənistanın iqtisadi və enerji dayanıqlığını gücləndirməyi müzakirə ediblər. Görüşdə regional əlaqələrin inkişaf etdirilməsinə və bu marşrut boyunca mövcud rəqabət üstünlüklərindən istifadəyə yönəlmiş məsələlər müzakirə olunub. TRIP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Yolu) proqramının həyata keçirilməsi ilə bağlı işlər də nəzərdən keçirildi.

Xüsusilə, iclasda Trans-Xəzər Sahibkarlıq Fondunun (TRIPP+Enterprise) rəhbəri Konstantin Sokolov iştirak edib. Bir gün əvvəl ABŞ hökumətinin bu təşkilata investisiyasını ikiqat artırdığı açıqlanıb. Yanvarın sonlarında Dövlət Departamentinin Avropa və Avrasiya İşləri Bürosu təşkilata 2036-cı ilin sonuna qədər "Tramp Yolu"nun inkişafına xərclənəcək 201 milyon dollar ayırıb. İndi isə Vaşinqton bu məbləği 402 milyon dollara çatdırmaq qərarına gəlib.

Xatırladaq ki, "Tramp Yolu" ilə əlaqəli iki şirkət 2026-cı ilin əvvəlində yaradılıb. Birincisi, TRIPP Development adlanan şirkət, marşrutun infrastrukturunun inkişafını təmin etməkdən məsuldur. Ermənistan təşkilatın səhmlərinin 26%-nə, ABŞ isə 74%-nə nəzarət edir. TRIPP Development ABŞ Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasının himayəsi altında fəaliyyət göstərir. İkinci şirkət, TRIPP+Enterprise, infrastruktur layihələrini hazırlamaq və həyata keçirmək üçün nəzərdə tutulub. Fond ayrıca investisiya qurumu kimi fəaliyyət göstərir.

Ermənistanda "Tramp Yolu"nun tikintisi hələ başlamayıb. Baş nazir Nikol Paşinyan hökumətinin 2026-cı ilin birinci yarısında təməl işləri üçün sənədləri hazırlayacağını və ikinci yarısında tikinti işlərinə başlayacağını vəd edib. Lakin, Azərbaycan hakimiyyəti layihə çərçivəsində öhdəliklərinin əhəmiyyətli bir hissəsini artıq yerinə yetirdiyini iddia edir. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Bakı indi Yerevandan da eyni şeyi gözləyir. O bildirib ki, Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin bir hissəsi olaraq nəqliyyat əlaqələrinin bərpasına əhəmiyyətli diqqət yetirilir və TRIP bu prosesin əsas elementidir. "Bu layihələr yalnız Azərbaycanla Naxçıvan arasında əlaqəni təmin etməklə yanaşı, həm də Azərbaycan, Ermənistan və bütün region üçün yeni iqtisadi imkanlar yaradacaq", - deyə Azərbaycan naziri bildirib.

Öz növbəsində, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev müsahibəsində bildirib ki, Zəngəzur Dəhlizinin açılması Türkiyə ilə Azərbaycan arasında yeni nəqliyyat imkanları yaradacaq. Onun sözlərinə görə, Bakı nəqliyyat infrastrukturunun tikintisini demək olar ki, başa çatdırıb. Bakıdan Zəngilana və Ermənistan sərhədinə gedən yol və dəmir yolu tikintinin son mərhələsindədir. Bundan əlavə, Naxçıvandakı dəmir yolu xətti bərpa edilib. Hacıyev həmçinin qeyd edib ki, Türkiyə Qars və İğdır arasında yeni dəmir yolu xətti çəkir və bu, regionun yeni nəqliyyat şəbəkəsinin bir hissəsi olacaq. "Zəngəzur dəhlizi açılsa, İstanbuldan Bakıya avtomobil və ya qatarla getmək mümkün olacaq. Bu, uzaq perspektiv deyil. İntensiv diplomatik işlər və infrastruktur tikintisi davam edir", - Hacıyev bildirib.

Beləliklə, TRIPP layihəsi Cənubi Qafqaz üçün adi infrastruktur təşəbbüsü deyil. O, XXI əsrdə qlobal ticarət marşrutlarının yenidən qurulmasının bir hissəsidir. Layihə uğurla həyata keçirilərsə, Azərbaycan enerji ixracatçısından Avrasiyanın mühüm logistika və tranzit mərkəzinə çevrilmək imkanı əldə edəcək. Bu, ölkənin geosiyasi çəkisini artıracaq, iqtisadiyyatın şaxələndirilməsinə töhfə verəcək və regional diplomatiyada Bakının rolunu gücləndirəcək. Bununla yanaşı, bu perspektiv zəmanətli deyil. Rusiya və İran kimi regional güclərin maraqları, Ermənistan daxilindəki siyasi proseslər və qlobal ticarətin dəyişkənliyi layihənin gələcəyinə təsir göstərəcək. Buna görə də Azərbaycanın əsas vəzifəsi yalnız yeni nəqliyyat bağlantısı əldə etmək deyil, onu rəqabətqabiliyyətli, etibarlı və iqtisadi cəhətdən cəlbedici beynəlxalq dəhlizə çevirməkdir. Bu baxımdan, qarşıdakı onillikdə Azərbaycanın uğuru təkcə coğrafi mövqeyindən deyil, həmin mövqeyi səmərəli iqtisadi və diplomatik üstünlüyə çevirmək bacarığından asılı olacaq.

***V.VƏLİLİ***

# Uşaqlar arasında yay ishalı təhlükəsi: istidən qoruyun

***Yay aylarında temperaturun yüksəlməsi, uşaqların daha çox açıq havada vaxt keçirməsi, hovuzlardan və dənizdən istifadənin artması və küçədə, ayaqüstü, kiçik fast-food dükanlarında satılan qidaların daha tez-tez istehlak edilməsi ishal infeksiyalarının artmasına səbəb olur.***



Xüsusilə kiçik uşaqlarda rast gələnən ishal bəzən çox təhlükəli hal yarada bilər. Yay aylarında müşahidə olunan ishal hallarının əksəriyyəti bakteriya, virus və parazitlərdən qaynaqlanan infeksiyalar nəticəsində yaranır. İsti havalarda bu mikroorqanizmlərin çoxalmasının artması, düzgün saxlanılmayan qidaların istehlakı, pis yuyulmuş meyvə-tərəvəz və çirklənmiş su mənbələri infeksiya riskini artırır.

Uşaqların parklar, piknik zonaları, üzgüçülük hovuzları və dəniz kimi ortaq məkanlarda daha çox vaxt keçirməsi də infeksiya ehtimalını artırır. Xüsusilə kiçik uşaqların əllərini və oyuncaqlarını ağızlarına salmaq vərdişi asanlıqla mikrobların yayılmasına səbəb ola bilər.

İshal qışda daha çox viruslardan qaynaqlansa da, yayda bakterial və parazitar infeksiyalar daha çox rast gəlinir. Rotavirus, norovirus və adenovirus ən çox yayılmış virus agentləri arasındadır; Salmonella, Campylobacter, Shigella və bəzi Escherichia coli (E. coli) növləri bakterial ishalın əhəmiyyətli səbəbləridir. Giardia və Entamoeba histolytica yayda müşahidə olunan parazitar bağırsaq infeksiyalarının əsas törədiciləri arasındadır.

Uşaqlıq dövründə ishalların əksəriyyəti kifayət qədər maye və qida dəstəyi ilə bir neçə gün ərzində aradan qalxır. Lakin, müəyyən simptomlar ortaya çıxarsa, dərhal pediatra müraciət etmək lazımdır. Əgər ağız quruluğu, ağlayarkən göz yaşı axmaması, gözlərin batması, sidik ifrazının azalması, həddindən artıq yuxululuq, təkrarlanan qusma, yüksək hərarət, şiddətli qarın ağrısı və şişkinlik, nəcisdə qan, ağızdan maye qəbul etməkdən imtina, altı aydan kiçik körpələrdə ishal, xroniki xəstəlikləri olan uşaqlarda ishal kimi əlamətlər varsa və bu əlamətlər yeddi gündən çox davam edirsə, həkim müayinəsi vacibdir. Uşaqlarda ishalın ən əhəmiyyətli riski infeksiyanın özü deyil, maye itkisi potensialıdır.

İshalın müalicəsində ən vacib yanaşma uşağın itirdiyi maye və mineralların əvəz edilməsidir. Ana südü ilə qidalanan körpələrdə ana südü ilə qidalanma davam etdirilməlidir və mümkün olduqca körpə daha tez-tez əmizdirilməlidir. Böyük uşaqlar kifayət qədər maye qəbulunu təmin etməli və yaşa uyğun normal qidalanmaya davam etməlidirlər. Qusma ilə müşayiət olunan hallarda, tez-tez fasilələrlə az miqdarda qidalanmaya üstünlük verilir. İshal zamanı qidalanma tamamilə dayandırılmamalıdır. Asan həzm olunan qidalara üstünlük verilməlidir. Qatıq, düyü sıyığı, makaron, qaynadılmış kartof, banan, şaftalı, yağsız ət və yüngül tərəvəz yeməkləri uyğun seçimlər arasındadır. Həddindən artıq yağlı, ədviyyatlı və zərif şəkərli qidalardan çəkinmək lazımdır. Hazır meyvə şirələri və qazlı içkilər tövsiyə edilmir, çünki onlar maye ehtiyacını ödəmək əvəzinə ishalı daha da pisləşdirə bilər.

Yay aylarında ortaq hovuzlar da bağırsaq infeksiyalarının yayılması üçün əlverişli şərait yarada bilər. Buna görə də, uşaqlara hovuz suyunu udmamaq öyrədilməlidir, hovuza girmədən əvvəl və sonra həmişə duş qəbul etməli və hovuzların müntəzəm olaraq dezinfeksiya edilməsi təmin edilməlidir. Hovuz suyunun udulmasının qarşısını almaq, xüsusən də körpələrdə çətin olduğundan, ilk illərdə ortaq hovuzlardan mümkün qədər istifadə etməmək tövsiyə olunur.

Dəniz suyu daha böyük həcminə görə çirklənmə riski ümumiyyətlə daha az olsa da, çirkab suları və ya digər çirklənmiş sularla çirkləndiyi bilinən ərazilərdə üzməkdən çəkinmək lazımdır. Bundan əlavə, ishal keçirən uşaqların həm xəstəlik dövründə, həm də sağaldıqdan sonra bir neçə gün hovuzlardan və dənizdən çəkinməsi digər uşaqların sağlamlığı üçün vacibdir.



Yay ishalının qarşısını almağın ən təsirli yolu əl gigiyenasıdır. Yemək hazırlamadan əvvəl və sonra, yeməkdən əvvəl, tualetdən istifadə etdikdən sonra, çöldən gəldikdən sonra və heyvanlarla təmasdan sonra əlləri ən azı 20 saniyə sabun və su ilə yumaq infeksiya riskini dəfələrlə azaldır.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***

# Mərakeş 350 ildən sonra Seuta sahib ola bilər

***Tarix dəyişib, yeni reallıqlar yaransa da, xalqlar bəzən keçmişin dərslərini, xüsusilə də torpaq itkilərini, ərazilərinin ilhaqını unuda bilmirlər. Fikir verin, az qala 80 ilə yaxındır ki, Ərəblərlə İsrail arasında qarşıdurma yaşanır. Hələ də, tərəflər bir-birini məhv etməyə çalışırlar. Çünki, İsrail Fələstinin, eyni zamanda Livanın, Suriyanın, Misirin torpaqlarını işğal edib. Hər gün atəş səsləri eşilir və hansısa tərəfdən insan ölümlərinin baş verdiyi, şəhər və qəsəbələrin dağıdıldığı xəbərləri eşidilir. Eyni faciəvi proseslər Rusiya ilə Ukrayna arasında baş verir. Nədən ki, Rusiya iddia edir ki, Ukraynanın bəzi əraziləri Rusiyanın tarixi torpaqlarıdır. Bu səbəbdən də qanlı müharibəyə start verilib.***

Hazırda tarixi torpaqlara sahiblik uğrunda mübahisə Mərakeşlə İspaniya arasında yaşanır. Problem o dərəcədə dərin və ziddiyyətlidir ki, hər an tərəflər arasında qanlı müharibə yaşana bilər. Səbəb isə Mərakeş və İspaniya arasında tarixi mübahisənin mövzusu olan Seuta şəhəri ilə bağlıdır. Mərakeş Seutanın onun tarixi torpağı olduğunu iddia edir və səhvin aradan qaldırılması üçün müxtəlif çabalar göstərir. Məlumatlara görə, bilavasitə hakimiyyət orqanlarının göz yummaları səbəbindən 40.000 nəfər insan Mərakeşdən İspaniyanın nəzarətində olan Seuta şəhərinə keçib. Nəticədə İspaniya ordusu ilə miqrantlar arasında qarşıdurma yaşanıb. Bir sıra xarici media orqanları azı 18 nəfərin həyatını itirdiyini yazır.

### Cəbəllütariq boğazının yaxınlığında yeni böhran yaşanır

İspaniyanın b.aş naziri Pedro Sançes vəziyyəti yerində qiymətləndirmək üçün daxili işlər naziri Fernando Qrande-Marlaska ilə birlikdə Seutaya səfər edib. Hökumətin qərarına əsasən, şəhərə əlavə hərbçilər və polis qüvvələri göndərilib. Avropa İttifaqı (Aİ) da böhranın qarşısını almaq üçün İspaniyaya dəstək təklif edib. Aİ-nin miqrasiya məsələləri üzrə komissarı Maqnus Brunner vəziyyətin nəzarətə götürülməsi məqsədilə "Frontex" vasitəsilə əlavə yardım göstərməyə hazır olduqlarını açıqlayıb. İspaniya Ali Məhkəməsinin bu ay qəbul etdiyi qərardan sonra Seutaya dəniz yolu ilə çatan miqrantların dərhal geri qaytarılması mümkün olmadığından bölgədə miqrasiya təzyiqi daha da artıb. Məhkəmənin qərarında dəniz yolu ilə ölkə ərazisinə çatan şəxslərin fərdi araşdırma aparılmadan dərhal Mərakeşə geri qaytarılması qadağan edilib.



İspaniya hakimiyyət orqanları problemin aradan qaldırıldığını və mərakeşlilərin Seutadan çıxarıldığını iddia etsələr də, Avropa İttifaqının rəsmiləri fərqli fikirlər səsləndirirlər. Qeyd olunur ki, hələ də, Seutada yüzlərlə mərakeşli qalmaqdadır. Bu isə şəhərdə humanitar böhran yarada biləcəyi ehtimalı yaradır. Avropa İttifaqına (Aİ) üzv ölkələrin səfirləri İspaniyadan Mərakeşə geri qaytarıldığı bildirilən miqrantların sayı ilə bağlı sübut təqdim etməyi tələb ediblər. Məsələ avqustun 4-də keçiriləcək Aİ daxili işlər nazirlərinin videokonfransında da müzakirə olunub. İspaniya hakimiyyəti Avropa İttifaqı liderlərinin Seuta miqrasiya böhranına reaksiyasını sərt tənqid edib. Digər tərəfdən, bəzi Aİ ölkələri İspaniyanın siyasətinin miqrantların gəlişini təşviq etdiyinə inanırlar.

Sual oluna bilər ki, Seuta nədən Mərakeşlə İspaniya arasında qarşıdurma vəziyyətinin yaranmasına səbəb olub? Əvvəla onu qeyd etmək lazımdır ki, Mərakeş dəfələrlə İspaniyadan Seutanın onun ərazisi kimi tanınmasını tələb edib. Hətta ötən əsrin ortalarında qısa müddətli də olsa tərəflər arasında silahlı qarşıdurmalar da yaşanıb. Ancaq ABŞ-ın və Avropanın aparıcı dövlətlərinin Mərakeşi hərbi zərbələrlə cəzalandıra biləcəklərini bəyan etmələri rəsmi Rabatı geri çəkilməyə məcbur edib. Bununla belə Mərakeş iddialarından geri çəkilmir və bu gün də eyni mövqedədir. Mərakeş onu işğal olunmuş ərazisi hesab edir, İspaniya isə Seutanı 350-ə yaxındır ki, ərazisinin bir hissəsi hesab edir.

Seutanın tarixi təxminən 3 min il əvvələ gedib çıxır. Şəhər müxtəlif dövrlərdə finikiyalıların, romalıların və ərəb dövlətlərinin hakimiyyəti altında olub. 1415-ci ildə Portuqaliya Seutanı ələ keçirərək Afrikadakı ilk daimi müstəmləkəsini yaradıb. Daha sonra Portuqaliya ilə İspaniya eyni kralın hakimiyyəti altında birləşəndə şəhər faktiki olaraq İspaniyanın idarəsinə keçib. 1668-ci ildə imzalanan Lissabon müqaviləsi ilə Portuqaliya Seutanın İspaniyaya məxsus olduğunu rəsmən tanıyıb. Cəmi 18,5 kvadratkilometr əraziyə malik olan Seuta Aralıq dənizi ilə Atlantik okeanını birləşdirən Cəbəllütariq boğazının yaxınlığında yerləşir. Bu strateji mövqe əsrlər boyu şəhəri həm ticarət, həm də hərbi baxımdan əhəmiyyətli edib. Hazırda təxminən 85 min nəfərin yaşadığı Seutanı Mərakeşdən hündür hasar və güclü sərhəd nəzarəti ayırır. Buna baxmayaraq, hər il minlərlə miqrant Avropaya keçmək ümidi ilə məhz bu şəhərə daxil olmağa çalışır.

### Seuta İspaniya ərazisi kimi tanınsa da, iqtisadi baxımdan Mərkeşdən asılıdır

Ədalət naminə qeyd etmək olar ki, Seuta Mərkeşin tarixi ərazisi olub. Mərakeşin Fnidek şəhəri ilə Seuta ən yaxın nöqtəsi arasındakı məsafə cəmi 2-3 kilometrdir. Bu yaxınlıq bir çox insanın üzərək keçməyə çalışaraq həyatlarını təhlükəyə atmasına səbəb olub. Bəzi mərakeşlilər dəniz yolu ilə üzərək şəhərə çatmağa çalışıb. Lakin əksər hallarda bu cəhd insanların həyatlarını itirmələri ilə nəticələnib. Sonuncu belə cəhd iyulun 30-da baş verdi. Bu dəfə 40 mindən çox insan Seuta daxil olmağa çalışdı və istəklərinə nail oldular. İspaniya mediası şəhərə tez çatmağa çalışan insanların kütləvi axını səbəbindən hadisələri tarixdəki ən böyük "humanitar işğal" kimi təsvir edir. Seuta yerli hökuməti fövqəladə humanitar və sosial böhranla üzləşdiklərini elan etdi və Madriddəki mərkəzi hökumətdən fövqəladə vəziyyət elan etməsini və şəhəri qorumaq üçün ordunu yerləşdirməsini istədi. Polis vəziyyəti nəzarətdə saxlaya bilmədiyi üçün böhran sərhəddən kənara, şəhər küçələrinə də yayıldı. Yerli İspaniya vətəndaşları küçələrə çıxdılar və bu da "işğalçılar" adlandırdıqları Mərakeş miqrantları ilə toqquşmalara səbəb oldu. Bu arada, Mərakeş Parlamenti tərəfindən hazırlanan hesabatda təxminən 3500 qadın və təxminən 200 uşağın İspaniya sərhədçiləri tərəfindən zorakılığa məruz qaldığını bəyan edib. Pis rəftar, sui-istifadə, oğurluq və xəstəliklər barədə xəbərlərdən sonra Mərakeş hökuməti "Bab Ceuta" qapısını tamamilə bağlamaq və dolanışıq qaçaqmalçılığı ticarətinə son qoymaq qərarına gəlib. Bu qərarla Seutadan olan minlərlə ailə yeganə dolanışıq mənbəyini itirib. Qərarın məqsədi insanların istismarına son neft və qazla zəngin Mərakeşlə qarşıduramaya getməyəcək. Bununla da Mərakeş az qala 350 ildən sonra tarixi ədalətsizliyi aradan qaldırmaqla Seuta sahib olacaq.

***İ.ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
7 avqust
2026-cı il

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# İnsanlardan heyvanlara xəstəlik keçə bilərmi?

***İllərdir heyvanlardan insanlara keçən yoluxucu xəstəliklər – zoonozlar dünya səhiyyəsinin ən ciddi problemlərindən biri hesab olunur. Quduzluq, brusellyoz, qarayara, salmonellyoz və digər infeksiyalar hər il minlərlə insanın sağlamlığı üçün təhlükə yaradır. Xüsusilə COVID-19 pandemiyasından sonra bu mövzu daha da aktuallaşdı. Hətta pandemiyanın ilk illərində ev heyvanlarının koronavirus daşıya biləcəyi ilə bağlı yayılan xəbərlər bir çox insanın pişik və itlərini küçəyə buraxmasına səbəb oldu. Sonradan isə mütəxəssislər bildirdilər ki, bu cür addımların elmi əsası yoxdur və ev heyvanlarının tərk edilməsi düzgün yanaşma deyil.***

Lakin son illərdə aparılan araşdırmalar xəstəliklərin yayılması ilə bağlı fərqli bir mənzərəni ortaya çıxarıb. Alimlər müəyyən ediblər ki, infeksiyalar yalnız heyvanlardan insanlara keçmir. İnsanlar da daşıdıqları bəzi virusları, bakteriyaları, göbələkləri və parazitləri heyvanlara ötürə bilirlər. Elmi ədəbiyyatda bu proses "əks zoonoz" (reverse zoonosis və ya anthroponosis) adlandırılır.

Mütəxəssislərin fikrincə, insanların ev heyvanları ilə eyni mühitdə yaşaması, vəhşi təbiətə müdaxilələrin artması, zooparklar, milli parklar və ekoturizmin genişlənməsi növlər arasında xəstəliklərin ötürülmə riskini xeyli artırıb. Bu gün artıq təkcə insanların deyil, heyvanların sağlamlığının qorunması da qlobal sağlamlıq siyasətinin əsas istiqamətlərindən biri hesab olunur.



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Doğum və ginekologiya üzrə mütəxəssis, baytar həkim Dr. Murat Akbaş bildirir ki, indiyədək Antarktidadan başqa bütün qitələrdə insanlardan heyvanlara bakteriya, virus, göbələk və parazitlərin ötürülməsi halları qeydə alınıb. Onun sözlərinə görə, bu faktlar artıq tək-tək müşahidələr deyil, müxtəlif ölkələrdə elmi araşdırmalarla təsdiqlənmiş hadisələrdir.

Bunun ən diqqətçəkən nümunələrindən biri ABŞ-də qeydə alınıb. Tennessi Universitetinin Baytarlıq Kollecinə iştahsızlıq, qusma və uzun sürən öskürək şikayətləri ilə gətirilən üç yaşlı Yorkshire teryerini xilas etmək mümkün olmayıb. Aparılan müayinələr nəticəsində itin vərəmə yoluxduğu müəyyən edilib. Araşdırma zamanı məlum olub ki, heyvanın sahibi altı ay idi vərəm xəstəliyinə görə müalicə alır. Mütəxəssislər bunun insandan itə keçən vərəmin ilk sənədləşdirilmiş hadisəsi olduğunu bildiriblər.



Oxşar hadisələr fillərdə də qeydə alınıb. ABŞ-nin İllinoys ştatında yerləşən ekzotik heyvan fermasında bir neçə filin insanlardan vərəmə yoluxduğu təsdiqlənib.

İnsan mənşəli virusların pişiklər üçün də təhlükə yaratdığı məlum olub. 2009-cu ildə Oreqon ştatında ağır H1N1 qripi keçirən bir şəxsdən ev pişiyinə virus keçib. Digər insan və ya heyvanlarla təması olmayan pişik sonradan H1N1 virusunun yaratdığı pnevmoniya səbəbindən tələf olub. Sonrakı illərdə aparılan araşdırmalar zamanı daha onlarla pişik və itin də insanlardan H1N1 virusuna yoluxduğu müəyyən edilib.

Alimlər xüsusilə qorillalar və şimpanzelərin insan xəstəliklərinə qarşı həssas olduğunu bildirirlər. Genetik oxşarlıq səbəbindən onlar qızılca, qrip, pnevmoniya və digər tənəffüs yolu infeksiyalarına asanlıqla yoluxa bilirlər. Tanzaniyanın Mahale Dağları Milli Parkında qeydə alınan ölümcül yoluxmalar zamanı tədqiqatçılar vəhşi şimpanzelərin insan metapnevmovirusuna yoluxduğunu müəyyən ediblər. Oxşar hadisə 2009-cu ildə Çikaqo zooparkında da baş verib. Xəstə heyvan baxıcılarından şimpanzelərə keçən virus nəticəsində bir neçə heyvan xəstələnib, onlardan biri ölüb.

Mütəxəssislər bildirirlər ki, insanlar yalnız virusları deyil, bəzi parazitləri də heyvanlara ötürə bilirlər. Aparılan araşdırmalar zamanı nəsli kəsilməkdə olan Afrika xallı vəhşi itlərində insan mənşəli "Giardia duodenalis" parazitinin aşkarlanması bunun bariz nümunələrindən biridir.



Bununla yanaşı, mütəxəssislər vurğulayırlar ki, insanlar üçün əsas təhlükə mənbələrindən biri hələ də heyvanlardan insanlara keçən zoonoz xəstəliklərdir. Bu xəstəliklər bakteriyalar, viruslar, göbələklər, protozoalar və müxtəlif parazitlər vasitəsilə yayılır və bəzi hallarda ölümcül nəticələrə səbəb ola bilir.

İnsanlara ən çox keçən zoonoz xəstəliklər arasında quduzluq, brusellyoz, qarayara, salmonellyoz, leptospiroz, vərəm, exinokokkoz (hidatik kist), toksoplazmoz, leyşmanioz və listerioz xüsusi yer tutur. Bu xəstəliklər əsasən yoluxmuş heyvanlarla birbaşa təmas, çiy və ya kifayət qədər bişirilməmiş ət və süd məhsullarının istehlakı, heyvan tullantıları, dişləmə və ya müxtəlif həşəratların vasitəçiliyi ilə insana keçir.

Həkim-infeksionist Leyla Əmrahova bildirir ki, zoonoz xəstəliklərdən qorunmağın ən təsirli yolu heyvanların vaxtında peyvənd olunması, baytarlıq nəzarətinin gücləndirilməsi, şəxsi gigiyena qaydalarına ciddi əməl edilməsi və heyvan mənşəli qidaların düzgün termiki emaldan keçirilməsidir. Onun sözlərinə görə, xüsusilə heyvandarlıqla məşğul olan şəxslər, baytarlar, qəssablar və heyvan məhsulları ilə çalışan insanlar daha diqqətli olmalıdırlar.

Mütəxəssislər hesab edirlər ki, "Bir Sağlamlıq" (One Health) yanaşması hazırda bu sahədə ən effektiv model hesab olunur. Bu konsepsiya insan, heyvan və ətraf mühit sağlamlığının bir-biri ilə sıx əlaqəli olduğunu qəbul edir. Başqa sözlə, insan sağlamlığını qorumaq üçün heyvanların sağlamlığına, heyvanları qorumaq üçün isə insanların məsuliyyətli davranışına ehtiyac var.

***Ayşən Vəli***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**